NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ

Tələbə Elmi Cəmiyyəti üzvlərinin Etik Davranış Kodeksi

"Tələbə Elmi Cəmiyyəti üzvlərinin Etik Davranış Kodeksi" *Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin İdarə Heyətinin 20 May 2025-ci il tarixli iclasında qəbul edilmişdir.*

Maddə 1. Ümumi müddəalar
1.1. Bu Kodeks Tələbə Elmi Cəmiyyəti (bundan sonra – TEC) üzvlərinin etik davranış qaydalarını, hüquq və vəzifələrini, habelə etik prinsiplərin pozulmasına görə məsuliyyət mexanizmlərini müəyyən edir.
1.2. Kodeksin müddəaları TEC-in bütün üzvləri üçün məcburidir.

Maddə 2. Əsas prinsiplər
2.1. TEC üzvləri fəaliyyətlərində elmə hörmət və rəğbət, inkişaf və yenilikçilik, əməkdaşlıq və komanda işi, edürüstlük, ədalət və bərabərlik, açıqlıq və şəffaflıq, sosial məsuliyyət prinsiplərinə riayət etməlidirlər.
2.2. Heç bir üzv fəaliyyətində ayrı-seçkilik, qərəz, təhqir və ya qeyri-etik davranış nümayiş etdirə bilməz.

Maddə 3. Elmi fəaliyyətin etik normaları
3.1. Elmi fəaliyyətlərdə plagiata, məlumatların saxtalaşdırılmasına, təhrif edilməsinə və mənimsənilməsinə yol verilmir.
3.2. Müəlliflik hüquqları qorunmalı, istinadlar dəqiq və düzgün göstərilməlidir.
3.3. Elmi tənqid və müzakirələr mədəniyyət çərçivəsində, elmi əsaslarla aparılmalıdır.

Maddə 4. Sosial davranış normaları
4.1. TEC üzvləri ictimai münasibətlərdə mədəniyyət və nəzakət qaydalarına əməl etməlidirlər.
4.2. Üzvlər universitet daxilində və xaricində TEC-in nüfuzunu qorumağa borcludurlar.
4.3. Sosial fəaliyyətlərdə təhlükəsizlik, sağlamlıq və məsuliyyət prinsiplərinə riayət olunmalıdır.

Maddə 5. İdarəçilikdə etik davranış
5.1. TEC-in idarəetmə orqanları qərar qəbulunda şəffaflıq və hesabatlılıq təmin etməlidirlər.
5.2. Maraqların toqquşmasına yol verilməməli, şəxsi maraqlar TEC-in maraqlarından üstün tutulmamalıdır.

Maddə 6. Üzvlərin vəzifələri

6.1. TEC üzvləri cəmiyyətin məqsəd və fəaliyyət istiqamətlərinə sadiq olmalı, verilmiş tapşırıqları vicdanla yerinə yetirməlidirlər.
6.2. Üzvlər qarşılıqlı hörmət, əməkdaşlıq və həmrəylik prinsiplərini rəhbər tutmalıdırlar.

Maddə 7. Üzvlərin hüquqları
7.1. TEC üzvləri cəmiyyətin fəaliyyətində sərbəst iştirak etmək, təkliflər vermək və təşəbbüslərlə çıxış etmək hüququna malikdirlər.
7.2. Üzvlərin hüquqlarının pozulması halında onlar TEC rəhbərliyinə və universitetin müvafiq orqanlarına müraciət edə bilərlər.

Maddə 8. Etik pozuntular
8.1. Etik normaların pozulması plagiat, təhqir, saxtakarlıq, ayrı-seçkilik və ya TEC-in nüfuzuna zərər gətirən digər hərəkətlər hesab olunur.
8.2. Etik pozuntuların hər biri TEC-in İntizam Komissiyası və ya universitetin müvafiq orqanı tərəfindən araşdırılır.

Maddə 9. Məsuliyyət tədbirləri
9.1. Etik normaların pozulmasına görə aşağıdakı intizam tədbirləri tətbiq oluna bilər:
- xəbərdarlıq;
- müvəqqəti fəaliyyət məhdudiyyəti;
- TEC üzvlüyündən xaric etmə.
9.2. Məsuliyyət tədbirləri pozuntunun xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq müəyyən edilir.

Maddə 10. Yekun müddəalar
10.1. Bu Kodeks TEC-in ümumi yığıncağında sadə səs çoxluğu ilə təsdiqləndiyi gündən qüvvəyə minir.
10.2. Kodeksdə dəyişiklik və əlavələr ümumi yığıncağın qərarı ilə edilə bilər.
10.3. Vahid qərarın verilə bilməsi üçün səslər bərabər olduğu təqdirdə sədrin səsi üstün götürülür.
10.4. Kodeksin məqsədi TEC üzvləri arasında elmi, sosial və təşkilati fəaliyyətlərdə etik mühitin qorunmasını təmin etməkdir.